

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 73 (22.984)

*20 aprel 2018-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, müdafiə nazirinin birinci müavini Valeri Gerasimovu qəbul edib.

Söhbət zamanı hərbi və hərbi-texniki sahələrdə Azərbaycan-Rusiya uğurlu əlaqələri müzakirə edilib, gələcək qarşılıqlı faydalı əməkdaşlıq haqqında fikir mübadiləsi aparılıb.

Valeri Gerasimov NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı ilə görüşünə ölkəmizin ev sahibliyi ilə əlaqədar dövlətimizin başçısına minnətdarlıq edib.

Azərbaycan Prezidenti bu görüşün Bakıda keçirilməsini ölkəmizə olan inamın göstəricisi kimi dəyərləndirib və görüşün beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı Körtis Skaparottinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



## Heydər Əliyev Universitetinin növbəti məşğələsi olub



***Naxçıvan Dövlət Universitetində Heydər Əliyev lektoriyasının görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın 95 illiyinə həsr olunmuş 221-ci məşğələsi keçirilib.***

Məşğələni giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov tibb elminin oftalmologiya sahəsində görkəmli alim, elm təşkilatçısı və ictimai xadim, tibb elmləri doktoru, akademik Zərifə Əliyevanın nümunəvi həyat yolundan danışıb. Qeyd olunub ki, aprel ayının 28-də 95 illiyi tamam olacaq görkəmli akademik respublikamızda tibb elminin inkişafına mühüm töhfələr verərək oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları ilə böyük şöhrət qazanıb. Rektor yüksək keyfiyyətlərə malik səmimi və xeyirxah insan, fədakar ömür yoldaşı və ana – Zərifə xanım Əliyevanın şərəfli həyat yolunun gənc nəsil üçün əsl nümunə olduğunu vurğulayıb.

Tibbi kliniki fənlər kafedrasının müəllimi, tibb üzrə fəlsəfə doktoru Nüsrət Həsənovun “Zərifə xanım Əliyevanın həyatı və fəaliyyəti” adlı məruzəsində bildirilib ki, görkəmli akademik oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxprofilli tədqiqatlar aparıb, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsində, o cümlədən Azərbaycanda traxomanın kökünün kəsilməsində böyük əmək sərf edib, xəstəliyin müxtəlif mərhələlərinin öyrənilməsi və müalicə metodlarının axtarılması yollarında dəyərli elmi-tədqiqatlar aparıb. Vurğulanıb ki, Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan akademik Zərifə xanım Əliyeva, həmçinin yüksəkixtisaslı gənc alim kadrlarının yetişdirilməsinə və oftalmoloq-həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirib.

Sonda görkəmli oftalmoloq-alimin həyat yolunu əks etdirən film nümayiş olunub.

**Nərmin CABBAROVA**

## Daha üç kənddə geniş quruculuq işləri gedir

***Əhalinin normal həyat şəraitinin daha da yaxşılaşdırılması məqsədilə muxtar respublikada ardıcıl tədbirlər görülür, müxtəlif istiqamətli quruculuq işləri həyata keçirilir.***

Regionun ən böyük bölgələrindən biri olan Şərur rayonunda da bu məsələ diqqət mərkəzində saxlanılıb. 2017-ci ildə Ələkli, Qarahəsənli, Ərəbyengicə, Arpaçay, Çəmənli kəndlərini bəzəyən yeni sosial obyektlər, Şərur şəhərində inşa olunan 2 nömrəli tam orta məktəb, əsaslı şəkildə təmir olunan beşmərtəbəli yaşayış binası, mərkəzi xəstəxana ötən ilin və bu ilin ilk aylarında inşa olunub əhalinin istifadəsinə verilib.

Cari ildə isə İbadulla, Kosacan və Kərimbəyli kəndlərində geniş quruculuq tədbirlərinə başlanılıb.

İbadulla kəndində tikilən üçmərtəbəli məktəb binası 522 şagird üçün nəzərdə tutulub. Kosacan kəndində yenidən qurulan üçmərtəbəli təhsil müəssisəsində 234 şagirdin təlim-tərbiyəsi üçün hər cür şərait yaradılacaqdır. Kərimbəyli kənd tam orta məktəbinin binası isə 270 şagird üçün nəzərdə tutulub.

Hər üç ünvanda kənd və xidmət mərkəzləri də inşa olunacaq, bütün infrastruktur təzələnəcəkdir.

**Xəbərlər şöbəsi**

## Təbii qaz təminatı fasiləsiz həyata keçirilir

Muxtar respublikada istehlakçıların fasiləsiz və təhlükəsiz təbii qazla təmin edilməsi diqqət mərkəzində saxlanılır, bu sahədə ardıcıl tədbirlər görülür. 2018-ci ilin birinci rübündə də bu iş davam etdirilmiş, daxil olan müraciətlərə əsasən 248 mənzil və müxtəlif təyinatlı obyekt qazlaşdırılmışdır. İstehlakçılara verilən təbii qazın dayanıqlı olması üçün istismarda olan təzyiq və qaztənzimləyiciləri, daşıyıcı və paylayıcı qaz kəmərləri, nəzarət-ölçü cihazları və digər texnoloji avadanlıqlar yenilənmişdir.



“Naxçıvanqaz” İstehsalat Birliyi nəzərdə tutulan işləri vaxtında yerinə yetirmiş, qazın nəqli zamanı meydana çıxan texniki itki normalarının minimal həddə saxlanılması üçün tədbirlər görülmüş, təbii qazdan qanunsuz istifadə hallarının qarşısı alınmışdır. Naxçıvan şəhərində mexaniki qaz sayğaclarının smart-karttipli qaz sayğacları ilə əvəz olunması istiqamətində işlər davam etdirilmiş, 474 qaz sayğacı quraşdırılmışdır. Muxtar respublikada 2018-ci ilin birinci rübündə yeni qaz boru xətlərinin quraşdırılması, yerinin dəyişdirilməsi, korroziyaya uğramış yeraltı yol, qapı keçidlərinin yerüstü keçidlərlə əvəz edilməsi işlərinin görülməsi ilə əlaqədar 39 min paqonometrə yaxın müxtəlif diametrli polietilen və dəmir borulardan istifadə olunmuşdur.

***“Naxçıvanqaz” İstehsalat Birliyinin mətbuat xidməti***

## Muxtar respublikada təhsilə qayğı göstərilir

Muxtar respublikamızda təhsilə qayğı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi prioritet məsələdir. 2018-ci ilin ötən dövründə Culfa rayon Dizə və Şərur rayon Ərəbyengicə kənd tam orta məktəblərinin yeni binası istifadəyə verilmiş, Naxçıvan şəhər 6 nömrəli tam orta məktəbdə isə tikinti işləri başa çatdırılmışdır. Muxtar respublikanın ümumtəhsil məktəbləri ilə Naxçıvan şəhərində yerləşən muzeylər arasında 4, AMEA Naxçıvan Bölməsi ilə 4 və Ekoloji Tərbiyə Mərkəzi ilə 2 interaktiv dərs keçilmişdir. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin, Naxçıvan Dövlət Universitetinin, “Naxçıvan” Universitetinin, Naxçıvan Müəllimlər İnstitutunun və orta ixtisas təhsili müəssisələrinin elmi dərəcəli müəllimləri tərəfindən ümumtəhsil məktəblərində 617 saat nümunəvi dərs tədris olunmuşdur. Məktəblilərin fənn olimpiadasının rayon mərhələsində 652 şagird iştirak etmiş, onlardan 226-sı respublika mərhələsinin yarımfinalında təmsil olunmaq hüququ qazanmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə ”Oxunması zəruri olan kitabların siyahısı” təsdiq edilmişdir. Sərəncama uyğun olaraq bütün təhsil müəssisələrində həmin kitablardan ibarət sərgilər hazırlanmış və təhsil işçiləri, eyni zamanda tələbə, şagird və müdavimlər tərəfindən bu kitabların mütaliəsinin və müzakirəsinin keçirilməsi təmin edilmişdir. Bundan başqa, “Oxunması zəruri olan kitablar”ın gənc nəslə dərindən aşılanması üçün ümumtəhsil məktəblərinin VIII-XI sinif şagirdləri ilə Naxçıvan Dövlət Texniki Kollecinin tələbələri arasında bilik yarışı keçirilmişdir. Heydər Əliyev adına Hərbi Liseyə sənəd verən namizədlərin liseydə ekskursiyaları təşkil olunmuşdur. 23-25 mart tarixlərdə isə ümumtəhsil məktəblərində çalışan hərbi rəhbərlərin 3 günlük hərbi təlim toplantısı keçirilmişdir.

Muxtar respublikamızda peşə təhsilinin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlərin nəticəsidir ki, qeyd olunan dövrdə Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən peşə təhsili müəssisələrini, ümumilikdə, 30 qrupda 544 müdavim təhsillərini başa vuraraq müvafiq təhsil sənədi almışlar. Onlardan da 16 qrupda 377-si sürücülük kurslarının, 9 qrupda 167-si isə digər peşə kurslarının müdavimləridir. Hazırda muxtar respublika üzrə peşə məktəblərində 25 qrupda 551 müdavim öz təhsilini davam etdirir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Mədəniyyət sahəsində qarşıya qoyulan vəzifələr yerinə yetirilib

2018-ci ilin birinci rübü başa çatmışdır. Bu dövrdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən əlamətdar və tarixi günlərlə bağlı tədbirlər, muzeylərin fəaliyyəti nəzarətdə saxlanılmış, Naxçıvan Dövlət Rəsm Qalereyasında “Ulu öndər Heydər Əliyev gənc rəssamların gözü ilə” mövzusunda rəsm müsabiqəsi keçirilmişdir. “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində, Heydər Əliyev Muzeyində, Naxçıvan Dövlət Tarix Muzeyində, Culfa Rayon Tarix-Diyarşünaslıq Muzeyində muzey bələdçiləri üçün seminar-treninq keçirilmiş, distant və açıq dərslər davam etdirilmişdir. Rüb ərzində muzeyləri 41 min 33-ü əcnəbi vətəndaş olmaqla, ümumilikdə, 116 min 653 tamaşaçı ziyarət etmişdir. Bu dövrdə muzeylərə 402 yeni eksponat daxil olmuşdur. “Şərur” Xalq Yallı Ansamblı Türkiyə Respublikasında “Kastamonu 2018 – Türk Dünyası Mədəniyyət Paytaxtı”nın açılış mərasimində və TURKSOY səviyyəsində keçirilən Novruz şənliklərində uğurla çıxış etmişdir.

Bu dövrdə kitabxanalarda 143 mədəni-kütləvi tədbir və 102 sərgi keçirilmişdir. Muxtar respublikanın kitabxanalarına 18 adda 2600-ə yaxın kitab və çap məhsulu verilmişdir. Kitabxanalara oxucu gəlişi 33 min 627, kitab verilişi 174 min 838 nüsxə olmuşdur. M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublikasının elektron kitabxanasından 2 min 236 oxucu istifadə etmişdir. Muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində, Musiqi Kollecində metodik kurslar, ustad dərsləri, hesabat konsertləri, intellektual oyunların keçirilməsi davam etdirilmişdir. Naxçıvan Dövlət Musiqili Dram Teatrı “İblis”, Naxçıvan Dövlət Kukla Teatrı “Kələkbazlar”, “Keçinin qisası”, “Uf-uf xanım”, “Göyçək Fatma”, “Niyyət açarı”, “Meşə macəraları”, “Ələddinin sehrli çırağı”, Naxçıvan Dövlət Uşaq Teatrı isə “Bizə dovşan və meşəbəyi lazımdır” tamaşalarını nümayiş etdirmişlər. Bu dövrdə Naxçıvan Dövlət Filarmoniyasının, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının, Musiqi Kollecinin ansambl və orkestrlərinin müxtəlif konsert proqramları olmuşdur.

Muxtar respublikanın turizm potensialının öyrənilməsi və təbliği istiqamətində işlər də davam etdirilmişdir. Rüb ərzində nazirliyin nəzdində fəaliyyət göstərən “Tətbiqi sənət və rəsm əsərləri, tarix və mədəniyyətimizlə bağlı müxtəlif növ çap məhsullarının satış mərkəzi”ndə 190 əl işi satılmış, Naxçıvan Turizm İnformasiya Mərkəzinin internet səhifəsinə 41 min 408 baxış qeydə alınmışdır. Bundan başqa, Naxçıvan Dövlət Xalça Muzeyinin internet səhifəsinin 5 min 746, “Əlincəqala” tarixi abidəsinin internet səhifəsinin 1692 izləyicisi olmuşdur. “Naxçıvan Mətbəxi” Kulinariya Mərkəzi tərəfindən də bir sıra işlər görülmüş, 9 mətbəx nümunəsi və milli mətbəxlə bağlı 35 folklor nümunəsi toplanmış, mərkəzin sosial şəbəkələrdəki səhifəsinə 3 min 400-dən çox baxış qeydə alınmışdır.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

*Yeniləşən kəndlərimiz*

# Yengicə qədim və müasir yaşayış məntəqələrimizdən biridir



***Yengicə Şərur rayonunun orta əsrlərə aid edilən yaşayış məskənlərindən biridir. Kənddəki köhnə hamam, üstüörtülü çarşı, buzxana və karvaransaray o dövrdə tikilib. Kənddə sənətkarlara məxsus xüsusi məhəllə də olub. Onlardan biri xalq arasında "Çölməkçilər küçəsi" adı ilə hələ də qalmaqdadır. Uzun illər boyu burada binaların tikintisində tağbənd və günbəzlərdən geniş istifadə olunub.***

Şərq memarlığı üslubunda inşa edilmiş, XVIII əsrə məxsus qiymətli tarixi abidələrdən biri – Yengicə hamamının burada yerləşməsi kəndin tarixinin qədimliyinini bird aha təsdiq edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü və qayğısı ilə muxtar respublikadakı digər tarixi abidələr kimi Yengicə hamamının da bərpası artıq tamamlanmaq üzrədir. Ümumi sahəsi 650, içərisinin sahəsi 545 kvadratmetr olan hamamın zalları örtən sferik günbəzlər, girişdəki sadə formalı baştağ və digər xidməti otaqlar qismən dağıntıya məruz qalsalar da, daxili planı yaxşı vəziyyətdədir. Bu da hamamın ilkin quruluşunu hərtərəfli bərpa etməyə imkan verib. Milli memarlıq ənənələri əsasında aparılan işlər nəticəsində tarixi abidənin əvvəlki görünüşünün bərpası uğurla tamamlanmaqdadır.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Yengicə Şərur-Dərələyəz qəzasında mühüm mərkəzlərdən biri və qəza inzibati-ərazi bölgüsünün mərkəzi kimi tanınıb. Mənbələrdə "Yenicə" (Yengicə) adına bir neçə nahiyədə rast gəlinir, o cümlədən Naxçıvan nahiyəsində "Yenicə" adlı kəndin mövcud olması ilə bağlı məlumatlar vardır. Şərur rayonundakı kənd adı isə 1728-ci ilə aid mənbədə qeydə alınıb və yaşayış məntəqəsinin başqa adının Qazançılı olduğu göstərilib. Həmin dövrdə Qışlağat nahiyəsində də eyniadlı kənd olub.

"Yengicə" sözü Azərbaycan dilində "yenicə", "az əvvəl", digər türk dillərində "təzə", "yeni" anlamlarında işlənir və bir qrup ailənin (yaxud bir nəslin) həmin kəndə məxsus icma torpağında yaratdığı məntəqə nəzərdə tutulur. Deməli, Yengicə "yeni salınmış kənd", "icma torpağında yaranmış məntəqə" mənasındadır.

Muxtar respublikamızda aparılan quruculuq işlərindən öz payını alan bu kənd tamamilə yenidən qurulub. Kənddə 568 yerlik, zirzəmi qatı ilə birlikdə 4 mərtəbədən ibarət yeni orta məktəb binası şagird və müəllimlərin istifadəsinə verilib. 2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev muxtar respublikaya səfəri zamanı təhsil ocağının açılış mərasimində iştirak edib, görülən işlərdən, yaradılan şəraitdən razı qaldığını bildirərək deyib: ***"Bu məktəb əslində kənd məktəbinə oxşamır. Çox əzəmətli gözəl, geniş və işıqlı bir məktəbdir".***

Müasir layihə əsasında inşa olunan yeni təhsil ocağında şagirdlərin ixtiyarına 32 sinif otağı ilə bərabər, kitabxana, idman zalı da verilib. Onların müasir informasiya texnologiyalarına yiyələnə bilməsi üçün məktəbdə kompüter sinifi yaradılıb. Buradakı sinif otaqları, fənn kabinələri və laboratoriyalar lazımi avadanlıqlarla, mebel dəstləri ilə təmin olunub. Hazırda məktəbdə təhsil alan 340 şagirdin təlim-tərbiyəsi ilə 54 müəllim məşğul olur. 2016-2017-ci tədris ilində bu təhsil ocağını bitirən məzunlardan 5-i ali məktəblərə, 4-ü isə orta ixtisas müəssisələrinə qəbul olub.

Müəllimlərlə söhbət zamanı öyrəndik ki, Naxçıvanda ilk təhsil ocaqlarından biri 1882-ci ildə burada açılıb. Bu xeyirxah işin təşəbbüskarı və təşkilatçısı dövrün maarifpərvər ziyalılarından olan Mirzə Ələkbər Süleymanov məktəb açılan il kənddə 11 uşağı təhsilə cəlb edib. 1884-cü ildə isə məktəb üçün ikisinifli bina inşa edilərək daha artıq uşağın təhsil almasına şərait yaradılıb. Qori Müəllimlər Seminariyasının məzunu olan bu ziyalı bununla rayon əhalisinin maariflənməsinə kömək edib. Məktəbin məzunları sırasında dövlət, elm və mədəniyyət xadimləri, hüquqşünaslar, həkimlər, sənət adamları var. Azərbaycan elminin görkəmli nümayəndələrindən Asəf Nadirov, Həsən Şirəliyev, Yusif Seyidov kimi alimlər bir vaxtlar təhsillərini bu məktəbdə alıblar. Sosialist Əməyi Qəhrəmanı Tamam Əliyeva da bu təhsil ocağının məzunudur.

Buradakı görkəmi ilə gözoxşayan ikimərtəbəli kənd mərkəzinin birinci mərtəbəsində poçt bölməsi, elektrontipli 480 yerlik ATS, baytar məntəqəsi, kənd kitabxanası yerləşir. İkinci mərtəbədə inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı fəaliyyət göstərir. 70 yerlik iclas zalı da buradakı qurumların ixtiyarına verilib.

Kənd mərkəzinin qarşısında "Heç kim unudulmur" adlı abidə kompleksi yaradılıb. Ağdərə kəndi uğrunda gedən döyüşlərdə şəhid olan Azərbaycanın Milli Qəhrəmanı Siyavuş Həsənovun büstü də burada ucaldılıb.



Kəndə müasir görkəm verən ikimərtəbəli həkim ambulatoriyası yaşayış məntəqəsinin mərkəzində yerləşir. Əvvəllər kənd sakinləri müayinə üçün rayon mərkəzinə üz tuturdularsa, artıq buna ehtiyac qalmayıb. Həkim ambulatoriyası yenitipli avadanlıqlarla təchiz olunub, 2 çarpayılıq palata xəstələrin ixtiyarına verilib. Burada 2 həkim, 4 tibb işçisi kənd sakinlərinə tibbi yardım göstərir. Bütün bunlarla yanaşı, kənddə ticarət obyektinin fəaliyyət göstərməsi də sakinlərin ürəyincədir.

İnzibati ərazi dairəsi üzrə nümayəndə Xəyal Cabbarovdan öyrənirik ki, kənddə 4593 nəfər yaşayır və onlar 1080 təsərrüfatda birləşiblər. Aqrar islahatlar zamanı əhalinin istifadəsinə 407 hektar torpaq sahəsi verilib, 200 hektar bələdiyyə, 10 hektar torpaq dövlət mülkiyyətində saxlanılıb. Kənd adamları həmin torpaqlardan lazımi qaydada istifadə edir, yerli məhsul bolluğu yaradırlar. İnzibati ərazi dairəsi üzrə nümayəndə onu da deyir ki, taxıl əkini sahələrini ilbəil genişləndiririk. Həm özümüzün çörəyə olan tələbatını ödəyir, həm də mal-qara üçün bol yem bazası yaradırıq. Tonlarla kartofumuz, sarımsaq və digər tərəvəz məhsullarımız olur. Əkin sahələrimizi üzvi gübrələrlə münbitləşdiririk. Suvarma suyuna olan ehtiyac isə kənd ərazisindəki 13 subartezian quyusundan və Arpaçaydan gətirilən suvarma kanalları vasitəsilə ödənilir.

Kənd sakinlərinin həyətyanı və pay torpaqlarında əkib-becərdikləri meyvə bağlarındakı ağaclardan ötən il də bol məhsul götürülüb. Yaşayış məntəqəsində arıçılıq da inkişaf edib. Ərazilərin hər birində arı yeşiklərinə rast gəlinir.

*Muxtar respublikamızın digər bölgələri kimi Yengicə kəndi də dövlətimizin diqqət və qayğısı sayəsində müasirləşən kəndlərimizin sırasına qoşulub. Yaşayış məntəqəsində yaradılan hərtərəfli şərait kənd sakinlərini yurd yerinə qəlbən bağlayıb.*

**Ramiyyə ƏKBƏROVA**

*İstehsal müəssisələri*

# Kəngərlidə balıq istehsalına diqqət artırılır

***Balıqçılıq qədim zamanlardan bəri gəlirli sahələrdən sayılıb. İllər ötdükcə bu sahəyə maraq daha da artıb və balıqçılıq bir peşə kimi formalaşıb. Əhalinin orqanizm üçün hədsiz faydalı olan balıq məhsullarına tələbatı artdığından bir çox sahibkar bu gəlirli işlə məşğul olur. Müstəqillik illərində sahibkarlığa göstərilən dövlət dəstəyi balıq istehsal edən müəssisələrin sayının artması ilə nəticələnib.***



Bu gün Naxçıvanda balıqçılığın inkişafı üçün geniş imkanlar vardır. Doğma diyarımızın əlverişli coğrafi mövqeyi, təbii iqlim şəraiti, bol sulu göl və çaylarının olması, eyni zamanda dövlətin göstərdiyi dəstək və qayğı balıqçılığın inkişafına geniş imkanlar açıb. Sahibkarlara güzəştli şərtlərlə kreditlərin verilməsi bu sahəyə maraq göstərənlər üçün böyük stimul olub. Əhalisinin əksəriyyətinin əkin-biçinlə məşğul olduğu bölgə sayılan Kəngərlidə də son vaxtlar balıq yetişdirilməsinə maraq xeyli artıb. Qarabağlar kəndində fəaliyyət göstərən "Asnı" qızıl xallı ala balıq yetişdirmə təsərrüfatında baş verən dəyişikliklər də diqqətçəkəndir. Belə ki, 1 hektar ərazini əhatə edən həmin təsərrüfatda 2016-cı ilin sentyabr ayından başlayaraq günün tələbləri səviyyəsində fəaliyyət göstərmək üçün hər cür şərait yaradılıb. İlk olaraq ərazidə geniş abadlıq işləri görülüb, 150 ağac tingi əkilib, 33 böyük, 20 kiçikölçülü hovuz düzəldilib, bəndlər bərkidilib, su qurğuları təzələnib. Həmçinin hovuzlara enmək üçün pilləkənlər quraşdırılıb. Çayın suyu borularla davamlı olaraq hovuzlara axıdılır. Su burada lazımi səviyyəni aldıqdan sonra öz axarı ilə hovuzların aşağı tərəfində qoyulmuş çıxıntılardan birbaşa arxa tökülür. Beləliklə, suyun səviyyəsi daim sabit qalır. Digər tərəfdən su davamlı olaraq təzələnir ki, bu da balıqların bəslənməsi və inkişafı üçün zəruri amillərdən biridir.

Təsərrüfatın sahibi Seyfəddin Rəhimov bizimlə söhbətində dedi ki, kəndin əlverişli coğrafi mövqeyi, xüsusən də burada çağlayan saf və bol sulu Asnı çayının imkanları təsərrüfatı daha da genişləndirməyə imkan verib. Ərazidə sanitariya-gigiyena qaydalarına ciddi əməl olunması diqqət mərkəzində saxlanılır. Bu da, təbii ki, keyfiyyətli məhsul istehsalında mühüm amildir. Türkiyədən gətirilən balıq kürüləri üzərində ilk olaraq süni mayalanma aparılır. Bundan 20 gün sonra nəticə bəlli olur. Balıqlar müəyyən müddət ayrı saxlanıldıqdan sonra hovuzlara buraxılır. Həmin balıqlara 4 ay müddətində hər gün 8 dəfə yem verilir. Daha sonra yemləmə sayı azaldılır. Yemlər qonşu İrandan və Türkiyədən alınır. Balıqlar üçün lazım olan yemin yaxın gələcəkdə Fransadan gətirilməsi nəzərdə tutulub.

Sahibkar qeyd etdi ki, təsərrüfat sahəsində istehsalın keyfiyyətinin yüksəldilməsi üçün İrandan avadanlıqlar sifariş verilib. Yaxın vaxtlarda müəssisədə quraşdırılacaq avadanlıqlar vasitəsilə balıqlar avtomatik şəkildə kəsilib, təmizlənib, yuyulacaq. Həmçinin akvarium və suyu oksigenlə təmin edən avadanlıqların da alınması nəzərdə tutulub. Bütün bunlar gələcəkdə müəssisənin daha məhsuldar fəaliyyət göstərməsinə imkan verəcək.

Qeyd edək ki, bu təsərrüfatda istehsal edilən balığa tələbat böyükdür. Yeməkxana və restoran biznesi ilə məşğul olan sahibkarlar, eləcə də ayrı-ayrı şəxslər tərəfindən sifarişlərin çox olması ona dələlət edir ki, təsərrüfatın gələcək illərdə də rentabelli işləməsi təmin olunacaq, mağaza vitrinlərində insan sağlamlığı üçün zəruri olan bu məhsulu sərfəli qiymətə hər bir istehlakçı əldə edə biləcək.

**Nail ƏSGƏROV**

***Muxtar respublikada qədim və çox əhəmiyyətli təsərrüfat sahəsi olan arıçılığa göstərilən dövlət qayğısı nəticəsində bu sahə yüksək inkişaf mərhələsinə qədəm qoyub. Arıçılıqla məşğul olmaq istəyən sahibkarlıq subyektlərinin sayı ildən-ilə artmaqdadır.***

# Gəlirli sahə olan arıçılıq inkişaf etdirilir

Təkcə 2017-ci ildə bu sahə üzrə təsərrüfat subyektlərinə 50 min manat məbləğində kredit verilib, 3 arıçılıq təsərrüfatı və mum vərəqi istehsalı sahəsi yaradılıb. 2016-2017-ci illərdə "Arıçılıq məhsulları-bal" festivallarının keçirilməsi də bu sahəyə marağın artmasına və istehsal olunan məhsulların satışına müsbət təsir göstərib.

Bu gün Naxçıvanda 4070-dən çox sahibkar arıçılıqla məşğul olur. Onlardan 549 sahibkarın 200-250 arı, o cümlədən 411 sahibkarın 20-dən çox, 116 sahibkarın 50-dən çox və 22 sahibkarın 100-dən çox arı ailəsi var. Hesablamalar göstərir ki, muxtar respublikamızda arı ailələrinin sayını 100 minə çatdırmaq və məhsuldarlığını artırmaq mümkündür.

Dövlət başçısı cənab İlham Əliyevin 2018-cil il 5 mart tarixli "Azərbaycan Respublikasında arıçılığın inkişafının stimullaşdırılması haqqında" Sərəncamı və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" yerli və ənənəvi arı cinslərinin yetişdirilməsinə, arı ailələrindən yüksək məhsul götürülməsinə, xəstəliklərə qarşı vaxtında mübarizə aparılmasına, arıçıların dövlət maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinə, arıçılıq məhsullarının ixracına, yeni arıxanaların yaranmasına böyük stimul verir.

Muxtar respublikada arıçılığın inkişafı, eləcə də bu sahədə məhsuldarlığın yüksəldilməsi üçün davamlı tədbirlər görülür. Belə ki, arıçılara balsüzən dəzgahların, arı pətəklərinin və digər avadanlıqların lizinq yolu ilə verilməsi, arı ailələrinin və arıçılıq məhsullarının çeşidinin artırılması, arıçılıqda xəstəliklərə qarşı mübarizə tədbirlərinin dövlət vəsaiti hesabına pulsuz aparılması keyfiyyətli məhsul istehsalına və bazarın yerli istehsal hesabına təmin olunmasına şərait yaratmışdır. Muxtar respublikada arıçılıq məhsullarının artırılması bazarlarda ekoloji baxımdan təmiz və ucuz məhsulların bolluğuna səbəb olur.



Bu təbiət canlıları maraqlı xüsusiyyətlərə malikdir. Bu barədə danışan təcrübəli arıçılar qeyd edirlər ki, arı ailələrinin şirin su ilə yanaşı, şor suya olan ehtiyacı davamlı ödənilməlidir. Onlar bunu da bildirirlər ki, məhsuldarlıq arıdan və təbiətdən asılıdır. Əvvəlcə arılar aranda, həyətimizdə olan çiçəklərdən şirə çəkir. Sonra arıları dağətəyi ərazilərə aparırıq. May ayının sonunda isə arı ailələrini dağlıq ərazilərə köçürürük. Dağda bizim arılarımız, necə deyərlər, üçüncü yazı görür.

Muxtar respublika florasının dərman bitkiləri ilə zəngin olması səbəbilə, toplanan bal həm dadına, həm də rənginə görə fərqlənir. Bu da məhsulun dəyərini daha da artırır. Ümumiyyətlə, əsl arıçılar hesab edirlər ki, hava şəraitindən asılı olmayaraq bu sahədə istənilən məhsuldarlığı əldə etmək mümkündür. Bunun üçün isə arı ailələrinə yüksək səviyyədə qulluq edilməlidir.

Baldan xalq təbabətində də bir çox xəstəliklərin müalicəsində istifadə olunur. Bundan başqa, arıçılıq məhsullarından mum, barəmum, arı zəhəri, arı südü, çiçək tozu, güləm də müxtəlif vitaminlər, bioloji aktiv maddələrlə zəngindir.

Muxtar respublikanın iqlim şəraiti və zəngin təbiəti imkan verir ki, bu il də bol və keyfiyyətli bal və arıçılıq məhsulları əldə edilsin.

**Əyyub ABDULLAYEV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı***

**Milli mətbuat tariximizdən**

# Milli mütərəqqi ideyaların tərənnümçüsü

***Milli mətbuatımızın inkişafında "Molla Nəsrəddin" jurnalı özünəməxsus xidmətləri ilə mühüm yer tutur. Mübaliğəsiz demək olar ki, jurnal jurnalistika peşəkarlığı, müxbirlik məharəti, janr müxtəlifliyi, milli ideyalılığı, xalqa bağlılığı, xalq yaradıcılığı ənənələrinə sədaqəti, ana dilinə məhəbbəti və dilinin sadəliyi, eləcə də müasirliyi ilə səciyyələnirdi. Mübarizə amalı "xalqın xoşbəxtliyi yoluna" işıq salmaq olan bu jurnal 25 il ərzində "Vətən, millət, dil" ideyasına xidmət göstərib.***




Bütün bu xüsusiyyətlərinə, Azərbaycan xalqının inkişafı yolunda göstərdiyi xidmətlərə görə xalqımızın ümummilli lideri Heydər Əliyev "Molla Nəsrəddin" jurnalını və onun redaktoru Cəlil Məmmədquluzadə irsini yüksək qiymətləndirərək demişdi: ***"Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə, əsərləri ilə, publisistikası ilə, böyük mətbuatçılıq fəaliyyəti ilə Azərbaycan xalqının milli oyanışında, milli dirçəlişində əvəzsiz rol oynamışdır. Xalqımızın milli şüurunun formalaşmasında məhz "Molla Nəsrəddin" jurnalının və Mirzə Cəlilin fəaliyyətinin rolu misilsizdir".***

"Sizi deyib gəlmişəm" baş proqramı ilə xalqına və Vətəninə məhəbbətdən yoğrulmuş jurnalın ətrafında çoxsaylı ziyalı və ədiblər toplanaraq "Molla Nəsrəddin" adlı bir məktəb formalaşdırdılar. Jurnal özünün satirik ruhu, sadə dili ilə milli yaradıcılıq ənənələrini yeni əsrdə bir qədər də inkişaf etdirib zənginləşdirdi. Məhz onun xidmətləri sayəsində milli mətbuatımızda Azərbaycançılıq ideyalı kütləvi oxunaqlığa malik yığcam publisistik janr nümunələri geniş meydan tapdı. Dövrünün görkəmli söz və fikir ustadı kimi geniş şöhrətə malik böyük ideoloq, məşhur "Füyuzat" jurnalının redaktoru Əli bəy Hüseynzadənin *"Yaxşı yazırsınız... Belə də yazmaq olarmış"* fikirləri də bu jurnalın milli mətbuat və jurnalistika tariximizdə tutduğu əhəmiyyətli yeri və oynadığı misilsiz xidmətləri etiraf edən mühüm faktdır. Bu baxımdan böyük ictimai xadim və görkəmli ədib Cəlil Məmmədquluzadə həm də milli mətbuatımızın inkişaf və intişarında mühüm xidmətləri ilə yadda qalmışdır. Bu mənada, bənzərsiz yumoristik, rəngli və şəkilli jurnal olan "Molla Nəsrəddin" "Dünyada sözdən böyük yadigar yoxdur", – deyən ustad Cəlil Məmmədquluzadənin və onun yoldaşları olan mollanəsrəddinçi ədiblərin məhəbbətlə sevdikləri Azərbaycan xalqına və onun gələcəyinə miras qoyduqları ən böyük yadigar oldu. Görkəmli akademik, böyük mirzəcəlilşünas alim İsa Həbibbəylinin də yazdığı kimi: *"Şərq aləminə ilk satira günəşi ilk dəfə "Molla Nəsrəddin"dən doğmuşdur. Məhkum Şərqin oyanışı, dirçəlişi və istiqlalı uğrunda geniş, sistemli və ardıcıl mübarizə "Molla Nəsrəddin" dərgisi ilə başlamışdır. "Molla Nəsrəddin" dərgisi Azərbaycanda və türk-müsəlman dünyasında milli azadlıq və müstəqillik uğrunda mübarizənin ədəbiyyatda və mətbuatdakı sərkərdəsidir".*

Böyük alim və publisist Məhəmməd ağa Şahtaxtlının "Şərqi-Rus" qəzetindən başlanan "jurnalistika məşqindən" sonra qəlbi xalqına xidmət amalı ilə döyünən dahi söz adamı Cəlil Məmmədquluzadə görkəmli ziyalı, əqidə və məslək dostu Ömər Faiq Nemanzadə ilə birgə dünyalarca məşhur olan "Molla Nəsrəddin" jurnalının əsasını qoydu. Mirzə Cəlil mollanəsrəddinçi ədiblərin ağsaqqalı, yolgöstərəni və ideoloqu idi. Bu jurnalın xidmətlərindən biri də o idi ki, Azərbaycan ictimai fikir və ədəbiyyatı tarixinə Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir bəy Hacıbəyli, Yusif Vəzir Çəmənzəminli, Əliqulu Qəmküsar, Məmməd Səid Ordubadi, Əli Nəzmi, Mirzə Əli Möcüz və başqa görkəmli ədəbi simalar bəxş etmişdir. Karikatura və şəkillərə üstünlük verən "Molla Nəsrəddin" dərgisi həm də Azərbaycanda satirik qrafika və karikatura sənətinin yaranmasına vasitə olaraq Oskar Şmerlinq, İozef Rotter, Əzim Əzimzadə, Seyidəli Behzad, İsmayıl Axundov, Hüseyn Əliyev, Qəzənfər Xalıqov və başqaları kimi karikatura ustalarının da formalaşmasına səbəb olmuşdur. Xalqına bağlı insanların Vətənə xidmət vasitəsinə çevrilən "Molla Nəsrəddin" jurnalı ictimai inkişaf baxımından bir çox xalqları qabaqlamaqla Azərbaycan xalqının mübariz və vətənsevər ziyalılarının əldə etdiyi böyük nailiyyəti bütün türk-müsəlman dünyasında təzahür etdirirdi. Adından tutmuş üslubuna qədər xalq yaradıcılığı ənənələrinə dayanan "Molla Nəsrəddin" qısa zamanda bütün Şərq aləmi və Türk dünyasında böyük şöhrət qazandı. Xalq lətifələrinə dayanaraq yaranan felyetonlar da adı "Molla Nəsrəddin" seçilən milli mətbuat orqanının "öz üzərinə gülmək" üslubuna uyğun ədəbi xidmət göstərirdi. Mollanəsrəddinşünasların yazdığı kimi də, "teleqram, atalar sözləri, poçt qutusu, bilməli xəbərlər" kimi məlum anlayışlar bilavasitə jurnalın kəşfi olaraq jurnalın aparıcı janrlarına çevrilmiş, mətbuatda janr kimi yetkinləşmişdir.

1906-cı il aprel ayının 20-də nəşr olunan "Molla Nəsrəddin" jurnalı "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım!" müraciəti ilə, bütövlükdə, xalqı, müsəlman və türk aləmini özünə ünvan seçmişdi. *"Ax unudulmuş Vətən, ax yazıq Vətən! Dünyalar titrədi, aləmlər məyallaq aşdı, fələklər bir-birinə qarışdı, millətlər yuxudan oyanıb gözlərini açdılar və pərakəndə düşmüş qardaşlarını tapıb dağılmış evlərini bina etməyə üz qoydular. Bəs sən hardasan, ay biçarə Vətən!"*, – deyə həmvətənlərini oyatmağa səsləyən jurnal *"gərək bir-birinizlə əl-ələ verəsiniz... yəni birləşəsiniz. Çünki vallah, billah, yer haqqı, göy haqqı, bundan başqa sizdən ötrü nicat yolu yoxdur"*, – deyə azərbaycanlıların həmrəyliyi və birliyi ideyası ilə çıxış edirdi. Təsadüfi deyil ki, "Sizi deyib gəlmişəm", "Azərbaycan", "Vətəndaşlar", "Cümhuriyyət" və sair kimi məqalə və felyetonlar Azərbaycan jurnalistikasının yeni məzmunda inkişafına əvəzsiz töhfə vermişdir. *"...Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etməkdir. Bu ola gərək hər bir qələm sahibinin amalı"*, – deyə xalqının istiqlaliyyəti, milli oyanışı və inkişafı yolunda dönmədən xidmət göstərən tanınmış ictimai xadim və ədib Cəlil Məmmədquluzadə, bütövlükdə, vətəndaşlıq məktəbi, vətənpərvərlik dərsliyidir.

Qısa fasilələrlə 748 nömrəsi işıq üzü görən jurnal 1906-1918-ci illərdə Tiflisdə, 1920-1921-ci illərdə 8 nömrə ilə Təbrizdə, 1922-1931-ci illərdə isə Bakıda nəşr olunmuşdur. Bu mətbu orqan Azərbaycan ictimai fikir tarixində tənqidi-realizm cərəyanını formalaşdırmışdır. "Baraban" jurnalı rusca, "Şeypur" jurnalı isə Azərbaycanca bu məşhur mətbuat orqanının mütərəqqi ənənələrini davam etdirərək ən çətin və məsuliyyətli vaxtlarda Azərbaycan xalqına milli-ideoloji cəhətdən xidmət göstərmişdir. "Molla Nəsrəddin" çap olunduğu müddət ərzində milli mənafe və ideologiyaya xidmət etmişdi. Jurnal konkret ictimai mühit və dövrün tələbləri ilə bağlı hərəkət edir, ictimai sifarişləri nəzərə alaraq milli istiqlal və siyasi bütövlük ideallarını da ifadə edirdi. Cəlil Məmmədquluzadə Azərbaycanın birliyi və bütövlüyü, milli istiqlalı kimi bir sıra vacib məsələləri qələmə almışdır. Ümumiyyətlə, "Molla Nəsrəddin" jurnalı yeganə və ilk mətbuat orqanı idi ki, sözün əsl mənasında, böyük və bütöv Azərbaycan coğrafiyası və ideyasını ortaya qoymuşdur. Sovet dövründə də "Molla Nəsrəddin" jurnalı totalitar sovet rejimi dövründə sərt tənqid, qınaq və təqiblərə məruz qalmış, 1931-ci ildə "Molla Nəsrəddin" jurnalı öz fəaliyyətini dayandırmışdır. Haqsız təqib və ittihamlara dözməyən böyük mütəfəkkir yazıçı, "Molla Nəsrəddin" jurnalının banisi Cəlil Məmmədquluzadə 1932-ci ildə dünyasını dəyişmişdir.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2006-cı il 23 yanvar tarixdə imzaladığı "Molla Nəsrəddin" jurnalının 100 illik yubileyi haqqında" Sərəncama əsasən jurnalın ilk nömrəsinin işıq üzü görməsinin 100 illiyi dövlət səviyyəsində qeyd olundu. Sərəncama əsasən xüsusi ədəbi məktəb yaratmış, milli mətbuatımızın inkişafına öz töhfələrini vermiş, ədəbiyyat və mədəniyyət tariximizdə özünəməxsus yeri olan, nəinki Azərbaycanda, Yaxın Şərq ölkələrində demokratik ideyaların təbliğinə misilsiz töhfələr vermiş jurnalın nəşri tarixi, mollanəsrəddinçi bədii-publisistik irs müstəqillik işığında yenidən tədqiq və təbliğ olunmağa başlandı. Dövlət başçısının 2004-cü il 12 yanvar tarixli "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamı ilə xalqımızın görkəmli yazıçı-publisistləri ilə yanaşı Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Məmməd Səid Ordubadi və digər mollanəsrəddinçilərin də bədii-publisistik əsərləri latın qrafikalı Azərbaycan əlifbası ilə yenidən kütləvi şəkildə nəşr olunub oxucuların ixtiyarına verildi. Bu da mollanəsrəddinçi ədəbi irsə yüksək ehtiramın ifadəsi idi.

Jurnalın yaradıcısı, dahi ədib Cəlil Məmmədquluzadənin, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar kimi tanınmış mollanəsrəddinçilərin doğulub boya-başa çatdığı Naxçıvan Muxtar Respublikasında da onların xatirəsi əbədiləşdirilmişdir. Cəlil Məmmədquluzadənin Naxçıvan şəhərinin mərkəzində heykəli ucaldılmış, onun 100, 125, 140 illik yubileyləri ilə bağlı bir sıra tədbirlər keçirilmişdir. Bu gün Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyi, Naxçıvan Dövlət Musiqili Dram Teatrı görkəmli ədibin adını daşıyır. Böyük yazıçının Naxçıvan şəhərindəki ev-muzeyi, Cəlilkənddə



və Nehrəmdə Cəlil Məmmədquluzadənin Xatirə muzeyləri fəaliyyət göstərir. Tanınmış yazıçı Məmməd Səid Ordubadinin anadan olmasının 100 illiyi münasibətilə 1972-ci ilin iyununda onun anadan olduğu mənzildə ev-muzeyi yaradılmış, 2009-cu ildə muzey əsaslı təmir olunmuşdur. Görkəmli ədibin 140 illik yubileyi ölkəmizdə, xüsusilə də Naxçıvanda geniş qeyd olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Oxunması zəruri olan kitabların Siyahısı"na hər iki ədibin əsərləri də daxil edilmişdir. Naxçıvanda görkəmli mirzəcəlilşünas, akademik İsa Həbibbəyli və digər ədəbiyyatşünaslar tərəfindən mollanəsrəddinçi ədəbi irsin tədqiqi istiqamətində də əhəmiyyətli işlər görülmüş, mirzəcəlilşünaslıq məktəbi formalaşmışdır.

*Sonda qeyd edək ki, "Molla Nəsrəddin" jurnalı "Şərq həyatının ensiklopediyası" adlana biləcək, "xalqa... "öz camalını" göstərib, onu "fikirləşməyə çağıran" bir məcmuə kimi xalqımızın qarşısındakı böyük xidmətlərinə görə heç zaman öz əhəmiyyətini itirməyəcək, həmişə öz gülüş və qəhqəhələri ilə yaddaşlarımızda düşünən və düşündürən publisistika kimi qalacaqdır.*

**Ramiz QASIMOV**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

## "Molla Nəsrəddin" jurnalının nəşrinin 112 illiyinə həsr olunmuş tədbir



Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyində keçirilən tədbiri giriş sözü ilə muzeyin direktoru Aləmzər İbrahimova açaraq bildirib ki, 112 il bundan əvvəl nəşrə başlayan "Molla Nəsrəddin" jurnalı Azərbaycan mətbuat tarixinin ən parlaq səhifələrindən biridir. Jurnalın nəşrə başlaması təkcə Azərbaycanda deyil, Yaxın və Orta Şərqdə, bütün İslam aləmində də mühüm hadisə idi. Nəşr olunan hər yeni nömrə o zaman bütün Şərq dünyasında, ictimai dairələrdə böyük maraqla qarşılanırdı.

Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, dosent Kamal Camalov "Mollanəsrəddinçilərin maarifçi görüşləri" mövzusunda çıxışında jurnalın xalqı təhsilə, elm və tərəqqiyə, milli birliyə çağıran ideyaların carçısı olduğunu bildirib.

Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, dosent Nəzakət İsmayılova "Mollanəsrəddinçi ədiblərimiz" mövzusunda çıxışında jurnalın daimi əməkdaşları Mirzə Ələkbər Sabir, Əli Nəzmi, Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir Hacıbəyov və başqalarının yaradıcılığından geniş söhbət açıb.

Qeyd olunub ki, dövrünün bütün görkəmli nasir, şair və publisistləri jurnalın səhifələrində fəal iştirak ediblər.

Tədbirin sonunda Naxçıvan Musiqi Kollecinin tələbələri jurnalda çap olunan məqalə və felyetonlar əsasında hazırlanmış kompozisiya göstəriblər.

## Əl işlərindən ibarət sərgi keçirilib

Naxçıvan Turizm İnformasiya Mərkəzində əl işlərindən ibarət sərgi keçirilib. "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzinin təşkil etdiyi sərginin açılışında Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin aparat rəhbəri Gülbuta Babayeva çıxış edərək bildirib ki, Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı olması ilə bağlı bir sıra tədbirlər keçirilir. Bu tədbir də həmin əlamətdar hadisəyə həsr olunub.



Vurğulanıb ki, qədim tarixə malik zəngin Naxçıvan mətbəxi milli mədəniyyətimizin mühüm tərkib hissəsidir. Xalq yaradıcılığının ən qədim sahələrindən olan kulinariya mədəniyyətinin sistemli şəkildə öyrənilməsi və inkişaf etdirilməsi, təbliğ olunması və tanıdılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2009-cu il 9 aprel tarixdə "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzinin yaradılması haqqında" Sərəncam imzalayıb və həmin mərkəz Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində fəaliyyətə başlayıb.

"Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzinin direktoru Türkay Səfərzadə çıxışında bildirib ki, mərkəz unudulmaqda olan mətbəx nümunələrimizi toplayır, sistemləşdirir və təbliğ edir. Qədim mətbəx əşyaları və onların istifadə qaydaları öyrənilir və milli mətbəx ilə bağlı adətlərimiz gənc nəslə aşılanır, bununla bağlı folklor nümunələri toplanılır, müxtəlif müsabiqələr, festivallar keçirilir. Belə tədbirlər ardıcıl olaraq gələcəkdə də davam etdiriləcəkdir.

Tədbirin bədii hissəsindən sonra əl işlərindən ibarət sərgiyə baxış olub. Milli mətbəx nümunələri ilə yanaşı, nümayiş etdirilən əl işləri, xüsusilə vitraj üsulu ilə, eləcə də muncuq, kağız, parça, ağac məmulatlarından hazırlanmış nümunələr maraq doğurub.

Sərgidə Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı olmasını əks etdirən əl işləri diqqəti daha çox cəlb edir. 50-yə qədər əl işlərinin nümayiş etdirildiyi sərgi 2 gün davam edib.

**Əli RZAYEV**

*Futbol, sadəcə, oyun demək deyil. Futbol, eyni zamanda bir millətin, bir xalqın, bir regionun adət-ənənələrini, mədəniyyətini, tarixi baxışını dünyaya çatdıran bir vasitədir. Futbolu idarə etmək heç də kənardan göründüyü qədər asan iş deyil. Çünki müasir futbolda deyildiyi kimi, "futbol sənayesinin nazı ilə oynamalısan". İndi bir klub düşünün: zəngin tarixə malik, bütün ənənələri özündə cəmləşdirən, oynadığı oyunlarda daha çox "feyr-pley" qaydalarına riayət edən, "nazı ilə oynanılmağa" layiq, ən əsası isə muxtar respublikanı layiqincə təmsil edən klub... Bəli, bu, "Araz-Naxçıvan"dır. Bu gün bu qoca çinarın meydana çıxdığı ilk rəsmi oyundan 50 il ötür. Biz də yarıməsrlik şərəfli yol keçmiş bu komandanın tarixini vərəqləməyə çalışdıq.*



Komandanın ilk oyununun afişası, 1968-ci il

*Naxçıvanın idman tarixindən*

# 50 illik çinarın ətrafında...

## Futbol komandamızın ilk oyunundan yarım əsr keçir


1969-cu il


1986-cı il

### *1968-ci ilin baharı*

Xalqımızın tarix köksündə yüzilliklərdir ki, öz həzin zümzüməsi ilə çağlayan Araz çayı qədər sevilib muxtar respublikamızın futbol komandası. Ölkənin digər regionlarında komandaların formalaşması və keçmiş SSRİ-nin müəyyən etdiyi zona birinciliklərində iştirak etməsi Naxçıvan futbolunda da canlanma yaratdı. Düzdür, o zamanlar keçmiş sovetlər üçün bir komandanın adı seçilib-sayılırdı – "Spartak"(Moskva). Lakin yaşlı nəsil, həmin zamanların futbol həvəskarları söyləyirlər ki, muxtar respublikada futbol həyatı daha əvvələ dayanır. Belə ki, İkinci Dünya müharibəsindən sonra Naxçıvan şəhərinin bəzi məhəllələrində futbol yarışları keçirilər, hər komandanın özünəməxsus adı olarmış.

Bütün bunlar yeni cərəyanın yaranmasına – klubun formalaşmasına səbəb olur. Belə ki, 1967-ci ilin mart-aprel aylarında bir vaxtlar "Neftçi"nin heyətində mükəmməl oyunu ilə seçilən Tofiq Axundov Naxçıvana göndərildikdən sonra bir qrup naxçıvanlı fəalın da iştirakı ilə "Araz" futbol komandası yaradılır və seleksiya xarakterli məşqlərə start verilir. Bu zaman artıq SSRİ çempionatında futbol mövsümü başladığından komandanın çıxışı növbəti mövsümə – 1968-ci ilə saxlanılır. Və budur, 1968-ci ilin əvvəllərində SSRİ Futbol Federasiyası müəyyən etdiyi zona birinciliklərini açıqlayır və "Araz" 3-cü zonanın "B" qrupunda mübarizə aparmağa başlayır. Bu zonada (qrupda) keçmiş Sovetlər İttifaqının tərkibində olan ölkələrin 21 komandası yarışırdı ki, bunların da üçü – "Toxucu" (Mingəçevir), "Daşqın" (Zaqatala) və "Araz" (Naxçıvan) Azərbaycanı təmsil edirdilər.

### *Stadionda anşlaq*

İlk oyun günü: həmin vaxt "Naxçıvan stadionu" adlandırılan (indiki Naxçıvan Muxtar Respublika Stadionu) arena uzun illər boyu futbol həsrəti çəkən azarkeşlərlə dolmuşdu. İlk dəfə olaraq stadionda anons edilir və komandamız SSRİ çempionatında ilk oyununu izləməyə gələn azarkeşlər tərəfindən alqışlanır. Ardınca Zaqatalanın "Daşqın" və Naxçıvanın "Araz" komandaları meydana daxil olur.

Maraqlı məqam odur ki, komandamız ilk oyunda meydana məhz ağ forma ilə çıxır, onun ikinci forma rəngi isə oyunun protokolunda qırmızı olaraq qeyd edilir.

Digər maraqlı məqam isə "Araz"ın yoldaşlıq görüşləri ilə bağlıdır. Belə ki, 1967-ci ildə yeni seleksiya məşqləri keçən komanda elə həmin il Sumqayıtda təşkil olunan spartakiadada iştirak edir və mükafatçılar sırasına düşür. Eyni zamanda komanda həmin ildə Bərdə və Ağdamın yerli komandaları ilə yoldaşlıq görüşü keçirir. O illəri böyük qürurla xatırlayan Hafiz Əliyev deyir: "Naxçıvanda futbol ənənələri hər zaman olub. Hələ komanda yaranmamışdan öncə məhəllələr arasında yarışlar təşkil edilirdi. Tofiq Axundov komandanı formalaşdırmağa başlayanda mənə də xəbər gəldi və məşqlərdə iştirak etmək üçün stadiona yollandım. İlk məşqdən sonra məşqçi məni komandaya qəbul etdiyini dedi. 18-19 yaşlı biri üçün bundan gözəl duyğu, sevinc ola bilməzdi. "Araz"ın heyətinə o zamanlar düşmək elə də asan deyildi. Yoldaşlıq görüşündə öncə Bərdə, sonra Ağdamda oyun keçirdik. Heç vaxt yadımdan çıxmaz, Ağdam klubunun kapitanı, Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırov idi".

1968-ci il mövsümündə 40 oyunda iştirak edən "Araz" 5 qələbə və 11 heç-heçə ilə 21 xal toplayır. "B" qrupunda ardıcıl olaraq 3 mövsüm keçirən komandamızın nəticələri ürəkaçan olmur. "Araz"ın əsas məqsədi isə yerli futbolçuları yetişdirmək və komandanın özəyini yalnız naxçıvanlı futbolçulardan təşkil etmək idi. Bunu Hafiz Əliyev də təsdiqləyir: "Tofiq Axundovun gözəl bir xasiyyəti var idi: yerlilərə üstünlük vermək. Hər zaman deyərdi ki, mən bura yerli futbolun inkişafı üçün gəlmişəm. Əsas heyət uğrunda daim mübarizə gedirdi, naxçıvanlı futbolçuların canla-başla çalışdığını görən baş məşqçi hər zaman bizlərə üstünlük verərdi. İlk oyun hələ də yadımdadır, stadion tam olaraq dolmuşdu. Hətta ot örtüyünün kənarında olan qaçış zolağında belə, azarkeşlər əyləşmişdi".

Naxçıvan klubu 1977-ci ildən başlayaraq II dəstədə çıxış edir. Burada komanda artıq formalaşmış halda mübarizəyə qoşulur və doğma arenada keçirilən oyunlarda rəqiblərinə xal vermir.

*Bir haşiyə çıxaq.* 1970-ci illərdə Bakıda 250 idman meydançası və şəhərciyi salınmışdı. 1973-cü ildə burada möhtəşəm idman sarayının təməli qoyularaq inşa edildi. 1974-cü ildə ölkənin 36 rayonunda 59 Uşaq-gənclər idman məktəbi fəaliyyət göstərirdi. İdmanın digər sahələrində olduğu kimi, futbolun da inkişafında ümummilli lider Heydər Əliyevin xidmətləri böyükdür. 1974-cü ilin yayında Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin təşəbbüsü ilə respublika partiya təşkilatı fəallarının yığıncağı keçirilir və yığıncaqda Azərbaycanda bədən tərbiyəsi və idmanın vəziyyəti, onu daha da yaxşılaşdırmaq yolları müzakirə edilir. Ulu öndər Heydər Əliyevin Azərbaycan futbolunun inkişafına göstərdiyi diqqət o dövrdə bütün ölkələrə səs salır. Bir neçə il öncə Rusiyanın "Soverşenno sekretno" ("Tam məxfi") qəzetində ümummilli lider Heydər Əliyevin ölkə futbolu üçün əvəzolunmaz xidmətlərindən bəhs edən yazıda da bu barədə ətraflı söhbət açılır.

Ötən əsrin 70-ci illərində "Araz" komandası böyük uğurlara imza atmağa başlayır. 1979-cu ildə komandanın "sükanı arxası"na Əhməd Ələsgərov gətirilir. Köməkçi-məşqçi funksiyası isə Hafiz Əliyevə həvalə edilir. Turnir cədvəlindəki mövqeyini itirməsinə baxmayaraq, komandamız həmin il çempionatı 6-cı pillədə başa vurur. Məhz bu uğurdan sonra keçmiş SSRİ-də "Araz" adı tez-tez hallanmağa başlayır. Baş məşqçi Əhməd Ələsgərov isə "Neftçi" komandasına aparılır. Onunla birgə Naxçıvan təmsilçisinin heyətində uğura imza atan 8 futbolçu Bakı klubuna yollanır.

### *Dünənin, bu günün və sabahın "Araz"ı*

Ötən əsrin 80-ci illərinin əvvəllərində elə də böyük nəticələr qazana bilməyən "Araz", 1987-ci il istisna olmaqla, SSRİ dağılana qədər müntəzəm olaraq II dəstədə çıxışını davam etdirir. "Araz" 1987-ci ildə Azərbaycan SSR-in daxili birinciliyində mübarizə aparır və klub tarixinin ilk titulunu – çempionluğu qazanır. Bu çempionluq komandaya yenidən SSRİ çempionatına qayıtmağa imkan yaradır. Məhz 1988-ci ildən etibarən komanda nailiyyətlər əldə etməyə başlayır. İki il ardıcıl olaraq turnir cədvəlini 7-ci və 9-cu pillələrdə başa vuran komandamız 1990-cı ildə ikinci aşağı liqada böyük nəticə göstərir. Belə ki, Azərbaycan komandalarının qərarlaşdığı 3-cü zonanın "A" yarımqrupunda 2-ci olan "Araz" 1-12-ci yerlər uğrunda mübarizədə üçüncü olur. Komandamız bu mərhələdə yalnız "Qarabağ" və "Xəzər" (Sumqayıt) komandalarından geri qalırdı.

Yarandığı gündən etibarən Azərbaycan futboluna yeni nəfəs gətirən "Araz"ın formasını SSRİ dönəmində Vaqif Sadıqov, Oqtay Abdullayev, Novruz Əzimov, Maşallah Əhmədov, İlqar Hüseynov, Asim İbrahimov, Ceyhun Hüseynov, Böyükağa Hacıyev, Allahverdi Səfərov, İbrahim Rzayev və digər tanınmış futbolçular geyiniblər.


2014-cü il

"Araz" SSRİ çempionatlarında 676 görüş keçirib ki, bu görüşlərin də 277-si Naxçıvan stadionunda oynanılıb. Doğma arenada 146 qələbə qazanan "Araz" 68 görüşdə meydanı "sülh"lə tərk edib. 63 görüş isə rəqiblərin qələbəsi ilə yekunlaşıb. SSRİ kuboku uğrunda isə komandamız yalnız bir görüş ("Rustavi" komandası ilə) keçirib.

Müstəqillik illərində "Araz" Azərbaycan çempionatlarında mübarizə aparıb və böyük uğurunu 2013-2014-cü illər mövsümündə əldə edib. Belə ki, komanda Azərbaycan Birinci Divizionunun qalibi olub. Hazırda "Araz-Naxçıvan" Naxçıvan Muxtar Respublika çempionatında çıxış edir və 4 mövsüm ard-arda çempionatın qalibi adını qazanıb.

Komandanın indi yalnız bir məqsədi var: yerli futbolçular yetişdirmək. Bunun üçün də uşaq futboluna böyük önəm verilir və klubun nəzdində 10, 11, 12, 13 və 14 yaşlılardan ibarət uşaq komandaları fəaliyyət göstərir. Məhz bunun nəticəsidir ki, "Araz-Naxçıvan"ın müəyyən yaş qruplarında olan, eyni zamanda əsas komandasında çıxış edən futbolçular Azərbaycanın milli komandalarına cəlb olunurlar.

Göründüyü kimi, yarandığı gündən etibarən yalnız yerli futbolçuların yetişdirilməsinə böyük diqqət ayıran klub ənənəsinə hər zaman sadiq qalıb. Bu gün muxtar respublikada uşaq, yeniyetmə və gənc futbolçular üçün yaradılan şərait, infrastruktur onların daha perspektivli inkişafına zəmin yaradıb. İnanırıq ki, 50 illik çinar bundan sonra da hər zaman muxtar respublika futbolunun inkişafına öz töhfəsini verəcək, uşaq futbolunu daim öz budaqları altında bəsləyəcək.

### *Naxçıvanda futbolun inkişafı diqqət mərkəzindədir*

Bu gün muxtar respublikada idmanın digər sahələri kimi, futbolun da kütləviliyinə, inkişafına, gənclər arasında geniş yayılmasına böyük diqqət göstərilir. Bunun nəticəsi olaraq 2002-ci ildə Naxçıvan Muxtar Respublikası Futbol Federasiyası yaradılıb. Federasiya yarandığı gündən etibarən muxtar respublikanın Gənclər və İdman Nazirliyi ilə birgə razılaşdırılmış təqvim planına uyğun olaraq hər il futbol üzrə muxtar respublika çempionatı, Naxçıvan Muxtar Respublika kuboku, "Heydər Əliyev kuboku", müxtəlif yaş qrupları üzrə yarış və turnirlər təşkil edir.

Son illər muxtar respublikada istifadəyə verilən yeni idman obyektləri sırasında futbol meydançalarını xüsusilə qeyd etmək yerinə düşərdi. Əgər 25-30 il əvvəl kəndlərdə yeniyetmə və gənclərin futbolla məşğul olmaları üçün stadionlar bərbad vəziyyətdə idisə, indi ən ucqar kəndlərdə də müasirtipli stadionlar, miniarenalar tikilərək gənclərin istifadəsinə verilib. Bu, futbola olan marağı xeyli artırıb, istedadlı gənclərin, futbolçuların üzə çıxmasına şərait yaradıb.

Ötən il Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu, şəhər və rayon Gənclər və İdman idarələrinin təşkilatçılığı ilə gənclərdən ibarət kənd komandaları arasında futbol üzrə şəhər və rayon birincilikləri keçirilib. Yarışlarda, ümumilikdə, muxtar respublikamızın 61 kəndinin futbol komandası birincilik uğrunda mübarizə aparıb. Göründüyü kimi, ötən illərlə müqayisədə indi rayon və kənd komandaları üçün hər cür geniş imkanlar yaradılıb və onların birinciliklərdə iştirak etmələri müasir futbolumuzun inkişafının göstəricisidir.


Dünən


Bu gün

✍ **Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Hüseynov Etibar Hüseyn oğlunun adına olan 22 iyun 2009-cu il tarixdə verilmiş AN-0003584 inventar nömrəli torpaq sahəsinin plan-ölçüsü itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 292